***Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən idman məktəblərindən I Avropa Oyunlarında iştirak edəcək idmançıların təqdimatını davam edirik.***

***I Avropa Oyunlarında ölkəmizi təmsil edəcək idmançılardan 24 nəfəri Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərinin yetirmələri və həmin məktəblərdə çalışan məşqçi-müəllimlərdir. Onlar 7 idman növü üzrə (atletika, akrobatika gimnastikası,badminton, qılıncoynatma, sambo, sərbəst güləş, stolüstü tennis) mübarizə aparacaqlar.***

**Kərim Musayev** 7 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Tennis İdman məktəbinin yetirməsidir. İdmanın badminton növü üzrə Azərbaycan çempionu olan K.Musayev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsidir.

**Fərhad İsmayılov "**Təhsil**"** Respublika İdman Mərkəzi –1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin məşqçi-müəllimidir. İdmanın stolüstü tennis növü üzrə məşğul olan F.İsmayılov 11 qat Azərbaycan çempionudur.

**Hacı Əliyev** idmanın sərbəst güləş növü üzrə məşğul olur.Dünya və Avropa çempionatlarının qalibi olan H.Əliyev Abşeron Rayonu Uşaq-Gənclər İdman Məktəbinin yetirməsidir. O, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsidir.

**Yekaterina Sokolova** Bakı şəhərı 5 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Atletika Məktəbinin yetirməsidir. Atletika ilə məşğul olan Y.Sokolova Azərbaycan və İstambul Balkan Oyunlarının iştirakçısıdır.

**Orxan Qələndərov "** Təhsil" Respublika İdman Mərkəzi – 2 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin yetirməsidir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alan O.Qələndərov badmintonla məşğul olur. O, Azərbaycan çempionatının və Azərbaycan Kubokunun qalibidir.